# Azərbaycan gəncliyi dövlətin qayğısı ilə əhatə olunub

**Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Sağlam gənclik sağlam nəsil deməkdir. Ona görə Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən birini gənclər siyasəti təşkil edir.**



Azərbaycan hakimiyyəti ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Gənclərin sağlam ruhda tərbiyəsinə, onların əsl vətəndaş kimi formalaşmasına istiqamətlənmiş məqsədyönlü islahatlara isə tarixi müstəqilliyimiz bərpa edildikdən sonra başlanılıb.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edə biləcəyi sağlam nəsil formalaşdırmaqdır. Son 30 ilin ümumi mənzərəsi, qazandığımız qələbələr sübut edir ki, Azərbaycan dövləti bu missiyasının öhdəsindən layiqincə gəlib. Ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etmək üçün çoxsaylı dövlət proqramları qəbul olunub. Hazırda ölkəmizdə 200-dən çox gənclər təşkilatı fəaliyyət göstərir. Gənclərimiz Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunur, xalqımızın haqq səsini müxtəlif tribunalardan dünyaya yayır, beynəlxalq ictimaiyyətin həqiqətləri bilməsi üçün var gücləri ilə çalışırlar. Həmçinin düzgün müəyyənləşdirilən dövlət siyasətinin nəticəsidir ki, gənclər idarəçilikdə də yüksək mövqelərdə təmsil olunurlar.

Gənclərin fəaliyyət və təşəbbüsləri dövlətimiz tərəfindən daim dəstəklənir. Dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasət çox uğurludur. Bu fakt gənclərimizin həyat və fəaliyyətində açıq-aşkar nəzərə çarpır. Azərbaycan hakimiyyəti gənclərin bilik və bacarıqlarının hərtərəfli formalaşmasını, ölkədə səriştəli kadr və mütəxəssis ordusunun yetişməsini, neft kapitalının insan kapitalına çevrilməsini prioritet elan edib. Uğurla aparılan gənclər siyasətinin müsbət nəticələri göz önündədir.

Diqqət və qayğı ilə əhatə olunmuş Azərbaycan gəncliyi bu gün dinamik inkişaf mərhələsindədir. Gənclərin bu inkişafı özünü sosial-ictimai, mədəni, siyasi və digər sahələrdə qabarıq göstərir.

***Müşfiq CƏFƏROV,***
***Milli Məclisin deputatı***

---

Azərbaycan.- 2024.- 2 fevral, № 22.- S.12.